20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜDÜR

Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 13 (6288) BAZAR, 20 YANVAR 2013-cü il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik







**Gün var əsrə bərabər -**
**Elə bil şair bu misranı 20 Yanvar gününü nəzərdə tutaraq qələmə alıb!**
**Bu faciəli gün adi gün olmadı!**
**Heç tarixi günlərin adisi də olmadı!**
**Əslində fikir və düşüncələrdə inqilabi dəyişiklik yaradan günə çevrildi!**
**Əqidə və mövqe dəyişikliyi törədən günə çevrildi!**

# QÜRUR VƏ ŞƏRƏF GÜNÜ

## Həmin gün xalqın kortəbii etirazlarını milli-azadlıq hərəkatına çevirdi







Qollu-budaqlı ağaclar yıxılanda ətraflarındakı pöhrələrə də ziyan verə bilirlər! SSRİ adlı super dövlətin çöküşü də bu sayaq baş verdi! Bunun bir neçə səbəbi vardı. Ən əvvəl, Azərbaycan zəngin karbohidrogen ehtiyatlarına malik olduğundan imperiyasevər qüvvələr belə yağlı tikəni əldən buraxmaq istəmirdilər. İkincisi, Azərbaycanın əlverişli geosiyasi mövqedə yerləşməsi də diqqətçəkəndir. Ən nəhayət, qırmızı imperiyanın dağılma prosesində "müttəfiq respublika"lardan biri sayılan Azərbaycana siyasi fəhmə, iradəyə və uzaqgörənliyə malik şəxslər rəhbərlik etmirdilər. Bu isə dağılma prosesinin fəsadlarla keçməsinə səbəb oldu!

Əli Azərbaycan xalqının qanına batmış cəllad Qorbaçov qırmızı imperiyanı xilas etməkdən ötrü "yenidənqurma" adlı oyuna başladı. Lakin mayası xəyanətlə yoğrulmuş bu insanın bütün cəhdləri boşa çıxdı! Əvəzində ermənilərdən aldığı rüşvətin müqabilində "Qarabağ problemi" adlı xəyanətkar planın işə salınmasına start verdi. Məqsəd Azərbaycanı itaət boyunduruğunda saxlamaq idi! Həmin dövrdə mərkəzi hakimiyyət bütün bu niyyətlərini gizlində saxlayır, ittifaq miqyasında siyasi şoular təşkil edirdi. "Sovet xalqı" isə hələ də Sov.İKP-yə və Moskvanın ədalətinə inanırdı!

M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri erməni akademik Aqanbekyanın Fransada çıxan "Humanite" qəzetindəki "Dağlıq Qarabağın Ermənistana veriləcəyi" barədəki açıqlaması Azərbaycanda ciddi reaksiya doğurdu. Əvvəlcə geniş xalq kütləsi bunları şayiə hesab edərək inanmaq istəmirdi. Amma Yerevandan DQMV-yə gələn emissarlar, orada başlanan mitinqlər, Moskvanın hadisələrə əvvəlcə seyrçi, sonralar isə birtərəfli münasibəti və ermənilərə qarşı loyallığı məsələnin ciddiliyindən xəbər verirdi.

*1988-ci ildən başlanan və yenidənqurmanın ilk qaranquşlarından sayılan mitinqlərin dağıdılmaması, habelə iştirakçıların, hətta təşkilatçı və çıxışçıların sovet rejiminin sərt və qəddar qayda-qanunları ilə cəzalandırılmaması insanları xeyli ürəkləndirirdi.*

**BELƏLİKLƏ, 1988-ci İLİN SONLARINA YAXIN BAKIDA "MEYDAN HƏRƏKATI" BAŞLANDI!**

Ermənistandakı soydaşlarımızın ev-eşiklərinin yağmalanıb dağıdılması, onların qorxudularaq zorla dədə-baba torpaqlarından çıxarılıb qovulması və binəva insanların ağır vəziyyətdə Azərbaycana köçməsi alovun üzərinə neft tökülməsinə bənzəyirdi. Artıq mitinqlərdə Ermənistandakı soydaşlarımıza qarşı törədilən vəhşiliklər barədə çıxışlar səslənir, arabir qaçıb canlarını qurtaran insanlara da söz verilirdi.

**Əslində Azadlıq meydanı "ürəkboşaltma" yerinə, yenidənqurmaya demokratiya görüntüsü vermək üçün "toxunulmayan məkana" çevrilmişdi.**

**Meydan ilkin mərhələsində yığcam ərazidə "xalqın etiraz səsinin" səsləndirildiyi "məhdud sahə" sayılırdı.**

**Buradakı etirazların qaynaqlandığı mənbə Dağlıq Qarabağa uzanan xain əllər, hədəfi isə mərkəzin susqunluğu və ədalətsizliyə qarşı dərhal və sərt reaksiya verməməsi idi!**

*Meydan hərəkatının hədəflərini yığcam şəkildə belə ümumiləşdirmək olar:*

*- Ermənistanın Azərbaycana növbəti ərazi iddiasına qarşı xalqın kortəbii və kütləvi etirazı;*

*- SSRİ-nin o zamankı başçısı M.Qorbaçovun ermənipərəst mövqeyinə və riyakar, ikiüzlü siyasətinə etiraz;*

*- Moskvanın Yerevana və Bakıya göndərilən nümayəndələrinin ikiüzlü və məkrli addımlarına etiraz;*

*- DQMV-də başlanan separatçı hərəkatın guya bölgənin zəif iqtisadi durumu ilə bağlılığından doğduğunu və mərkəzin buna "uyaraq" əslində bu hərəkatın siyasi mahiyyətini gizlətməyə çalışaraq qəbul etdiyi mənasız və aldadıcı qərarlara etiraz;*

*- "Təşkilat komitəsi" adı altında əslində hiyləgərliklə DQMV-nin Azərbaycanın tabeliyindən çıxarılmasına qarşı etiraz və s.*

Bu etirazlar bəzən kükrəyən mitinq iştirakçılarının hiddətinə çevrilsə də, "Ar olsun!" nidalarından və havaya yumruq silkələməkdən uzağa getmirdi.

Təbii ki, etirazların digər formalarından da istifadə olunurdu. Onların bir neçəsini xatırladırıq:

*- Bəzi qəzetlərdə "ümumi prinsiplər"dən kənara çıxan tənqidi ruhlu məqalələr dərc edilirdi;*

*- SSRİ xalq deputatlarının qurultayındakı çıxışlarda hər iki tərəfdən olan çıxışçılar ittihamedici fikirlər səsləndirirdilər;*

*- Azərbaycan Ali Sovetinin sessiyalarında SSRİ rəhbərliyindən məsələnin tezliklə həllini tələb edən çıxışlar eşidilirdi;*

*- Ali Sovetin sonralar qəbul etdiyi qərarlarında bəzən mərkəzin mövqeyinə tənqidi yanaşma meyilləri duyulurdu və s.*

**Bütün bu etirazlara, mitinq və tətillərə baxmayaraq, hələ heç kəs SSRİ-dən qopmaq, müstəqil dövlət yaratmaq barədə düşünüb danışmırdı!**

**Hədəfdəki məsələ Dağlıq Qarabağın toxunulmazlığı və Ermənistanın Moskva tərəfindən müdafiə olunan özbaşınalıqlara son qoyulması idi!**

Əslində "meydan hərəkatı"ndan bundan artığını da gözləmək olmazdı. Çünki bu, totalitar rejimin "demokratikləşdiyini", "yenidənqurma"nın başlandığını göstərən və bütün müttəfiq respublikalarda eyni ssenari üzrə qurulan tamaşalardan biri sayılırdı!

*Mitinqlərin təşkilatçıları SSRİ rəhbərliyinin razılığı ilə ölkə miqyasında yaradılan "xalq cəbhələri" olurdu!*

*DTK-lar belə qurumların "fəaliyyətinə", "mitinq təşkilatçılığına" göz yumurdular!*

*"Meydan qəhrəmanları"nın "alovlu" çıxışları əslində "icazə verilmiş cəsarət" sayılırdı!*

*Belə "tədbirlər"ə, onların "ideoloq" və "təşkilatçılarına" dəyib-dolaşmaq qadağan edilirdi!*

**Qırmızı imperiyanın xilasına xidmət edən yenidənqurma prosesi sürət götürdükcə əsl məqsəddən uzaqlaşdığı, təhlükəli xarakter aldığı duyulurdu. Odur ki, hadisələri qabaqlamaq, cızığından çıxanlara qulaqburması vermək ehtiyacı yaranırdı. Cəza verməkdən ötrü "nümunə" seçilərkən Azərbaycanın üzərində dayandılar. Niyə?**

Əvvəla, Azərbaycan müsəlman respublikası idi və beynəlxalq miqyasda onu müdafiə edəcək heç bir güc görünmürdü. İkincisi, M.Qorbaçova yol tapan erməni diasporunun sifarişinin icrası üçün Azərbaycanı qorxutmaq və zəiflətmək lazım gəlirdi. Üçüncüsü, cəzalandırmadan ötrü təzə bəhanə tapmaq gərək deyildi, sadəcə baş verənlərin şiddətləndirilməsi kifayət edirdi. Ən nəhayət, mərkəzdənqaçmanı dayandırmaq və qarşısını almaq üçün "konkret nümunə əsasında" kiməsə "yerini göstərmək" zamanı çatmışdı! Odur ki, etirazçıların "nazı ilə oynamaq" barədə kimsə düşünmürdü! Üstəlik mitinqlərdə respublika rəhbərlərini asmaqdan ötrü "dar ağacı" quraraq (simvolik olsa da belə) xalqa nümayiş etdirmək, paytaxtda "odlu silah istehsalı" barədə məsuliyyətsiz və əsassız bəyanatlar səsləndirmək, insanları ordu üzərinə getməyə səsləmək ağılsız və mənasız hərəkətlər ələ bəhanə verirdi. Cəzalandırma dəstələri isə bunları "əsas tutaraq" qəddarlıqla qırğın törətdilər.

*Cəza dəstələrinin tərkibində erməni əsilli hərbçilərinin xeyli olması qəddarlığı və amansızlığı artırdı!*

*Əliyalın, dinc əhali güllələrə hədəf seçildi, zirehli texnikanın tırtılları altında qoyuldu!*

*Yaşayış binalarının pəncərələri atəşə tutuldu, hətta mənzildəki sakinlərdən qətlə yetirilənləri də oldu!*

*Təcili yardım maşınlarına, yaralıların köməyinə gələn tibb işçilərinə güllə atıldı, xəsarətlər vuruldu!*

*Küçə ilə gedən marşrut avtobuslarının sərnişinləri, uşaqlar və qadınlar öldürüldü!*

***Bu, dinc sakinlərə qarşı görünməmiş qəddarlıq və vəhşilik idi!***

***Bu, günahsızın cəzalandırılması, haqlının haqsıza hədəf seçilməsi idi!***

***Bu, qırmızı imperiyanın mahiyyəti, iç üzünün faş olunması idi!***

***Xalqa xəbərdarlıq etmədən, fövqəladə vəziyyət rejiminə keçildiyini bildirmədən insanların gülləbarana tutulması idi!***

Kütləvi qətliam və qırğın nəticəsində 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakı qan çanağına döndərildi, paytaxtın küçələri günahsız insanların qanına boyandı!

İnsanlar gördüklərindən dəhşətə gəlmişdilər!

İnsanlar belə amansızlıqdan hiddətlənmişdilər!

İnsanlar görünməmiş vəhşilikdən şoka düşmüşdülər!

*Azərbaycan büsbütün matəmə qərq oldu!*

*Azərbaycan xalqı özünü aşağılanmış və təhqir edilmiş saydı!*

*Xalq arxasız və köməksiz vəziyyətdə idi!*

**Belə bir vaxtda - 21 yanvar 1990-cı ildə ulu öndər Heydər Əliyev həyatını bir daha təhlükəyə ataraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi, bütün dünyaya səs salan bəyanat verdi!**

**Azərbaycan xalqına başsağlığı dilədi!**

**Xalqın dərdinə şərik oldu!**

**Belə bir ağır gündə Vətəndən uzaqda olsa da, xalqla birgə olduğunu, onun arxasında dayandığını söylədi!**

*QƏZƏB VƏ ETİRAZINI GİZLƏTMƏDİ: "Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm".*

*QIRĞINI TÖRƏDƏNLƏRİN ƏMƏLLƏRİNƏ İLKİN SİYASİ QİYMƏT VERDİ:*

*"Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır... Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar".*

Ulu öndər Heydər Əliyevin bəyanatı aydın səmada şimşək kimi guruldadı, dünyanın bütün informasiya agentlikləri tərəfindən Yer kürəsinə yayıldı, bu qətliamın təşkilatçılarına, ideya rəhbərlərinə və istirakşılarına qarşı ilk ittiham oldu!

**Vaxtında verilən bu bəyanat və qiymət insanları sanki şokdan ayıltdı, onların yalqız və kimsəsiz olmadıqlarını andırdı, düşüncələrə bir aydınlıq, saflaşma gətirdi!**

*Bu həm də beyinlərdə inqilabi dəyişikliklər yaratdı!*

*İnsanlar etiraz etməkdən imtina etməyə keçdilər!*

*Özünü "qardaş xalqların könüllü ittifaqından yaranmış dövlət" adlandıran imperiyadan imtina etdilər!*

*"Dünyanın ən humanist və sülhsevər ordusu" kimi vəsf olunan, ancaq bir gecənin içərisində onlarla günahsız insanı amansızcasına qətlə yetirən "Qızıl ordu"dan imtina etdilər!*

*Uzun illər inanaraq qulluq etdikləri Sov.İKP-dən imtina edərək kütləvi şəkildə və nümayişkaranə formada partiya biletlərini atmağa və yandırmağa başladılar!*

*Moskvadan düzgün və ədalətli qərar görməyəcəklərini anladılar!*

*Artıq hamı SSRİ-dən qopmaq, müstəqil dövlət yaratmaq barədə təkcə düşünmürdü, həm də bu barədə ucadan danışırdı.*

**Ümummilli lider Heydər Əliyevin bu tarixi bəyanatı, bəyanatda "yenidənqurma" adlanan dövrdə SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı ədalətsiz və qisasçı mövqeyinə verdiyi qiymət, etdiyi çağırışlar meydan hərəkatından milli-azadlıq hərəkatına keçid məqamı oldu!**

**XALQ ARTIQ ETİRAZ MƏRHƏLƏSİNDƏN MÜBARİZƏ MƏRHƏLƏSİNƏ, MÜSTƏQİL DÖVLƏTİNİ YARATMAQ MƏRHƏLƏSİNƏ QƏDƏM QOYURDU!**

Qarşıda onu gərgin və ağır, qurbanlarla dolu mübarizə gözləyirdi!

Yol doğru, seçim düzgün idi!

Doğrudur, bu mübarizədə səhvlər və yanlışlıqlar baş verdi, torpaqlar itirildi!

Xalq öz həqiqi rəhbərinə, sınanmış oğluna yenidən qovuşana qədər müsibətlər çəkdi, məşəqqətlər gördü!

Amma nəticədə müstəqil dövlətini qura, arzu etdiyi azadlığına qovuşa bildi!

**Onu düzgün istiqamətə yönəldən sevimli oğlu Heydər Əliyev oldu!**

**Müstəqilliyin xilaskarı və müasir Azərbaycan dövlətinin banisi də bu görkəmli şəxsiyyət, dahi insandır!**

**Bu gün də Azərbaycan dövlətini yaşadan və inkişaf etdirən, müstəqilliyi əbədi və dönməz edən, xalqımızı dünyada tanıdan Heydər Əliyev yolu, Heydər Əliyev siyasi kursudur!**

**ƏSLİNDƏ 20 YANVAR KƏDƏR VƏ MATƏM GÜNÜ DEYİL!**

*20 Yanvar milli-azadlıq hərəkatının başlandığı gündür!*

*20 Yanvar şüurlarda baş verən inqilabi dəyişikliklər günüdür!*

*20 Yanvar xalqın imperiya xofundan qurtulduğu gündür!*

*20 Yanvar xalqın əliyalın tankın və avtomat gülləsinin üzərinə getdiyi gündür!*

*20 Yanvar xalqın ideyaca yenidən öz rəhbərinə qovuşduğu, mənən birləşdiyi gündür!*

**20 Yanvar QÜRUR VƏ ŞƏRƏF GÜNÜDÜR!**

**Bəxtiyar SADIQOV**